BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Humanitar elmlər seriyası 2012*

UOT 94"19/…"

# 1978-1979-cu İLLƏR İRAN İSLAM İNQİLABI VƏ ABŞ

**G.İ.QARAYEVA**
***Bakı Dövlət Universiteti***
***qarayeva1947@hotmail.com***

*İrandakı İslam inqilabının baş verməsində daxili səbəblərlə yanaşı, xarici səbəblər də mövcud idi. İran həmin dövrdə ABŞ-ın regionda ən yaxın və strateji müttəfiqi idi və bununla yanaşı, Amerika Birləşmiş Ştatları bu ölkəyə çoxlu miqdarda silah satmışdı. Bundan əsas məqsəd Sovet İttifaqından gələn təhlükənin qarşısını almaq və Fars körfəzində İranın dominant rolunu təmin etmək idi. İranda işləyən və yaşayan xarici ölkə, xüsusilə ABŞ vətəndaşlarının yüksək səviyyədə yaşaması, təbii ki, yerli əhali tərəfindən sakit qarşılana bilməzdi. Buna görə də, islam inqilabçılarının əsas mübarizə istiqaməti ABŞ-a qarşı çevrilmişdi. 1979-cu ilin əvvəlində inqilabın təsiri altında şah Məhəmməd Pəhləvi İranı tərk etmək məcburiyyətində qaldı, fevralın 1-də Ayətulla Xomeyni Tehrana qayıtdı. İslam inqilabından sonra da ABŞ-a qarşı mübarizə davam edirdi. 4 noyabr 1979-cu ildə özlərini «imamın xəttinin ardıcılları» adlandıran tələbələr Tehranda Amerika səfirliyinin binasını tutdular və 52 nəfəri girov götürdülər.*

**Açar sözlər:** İslam inqilabı, tələbə, Birləşmiş Ştatlar, adam

70-ci illərdən başlayaraq neft faktorunun ABŞ xarici siyasətində əhəmiyyəti daha da artmışdır. Məhz bu dövrdən etibarən neft amili ABŞ-ın milli təhlükəsizlik doktrinasının əsas tərkib hissəsi kimi qeyd olunmağa başlanmışdır. Bu da təsadüfi deyildi. 70-ci illər ABŞ-SSRİ münasibətlərində uzaqmənzilli nüvə raketlərinə dair müqavilənin bağlanmasına baxmayaraq, sürətlə silahlanma davam edirdi. Hər iki dövlətin hərbi sənaye kompleksi neftə olan tələbatı durmadan artırdı. Həmin dövr qəbul olunmuş Karter doktrinasının əsasını da məhz neftdən irəli gələn tələbatı ödəmək məqsədilə İranda möhkəmlənmək təşkil edirdi.

İranda islam inqilabına təkan verən səbəblər sırasında iqtisadi irəliləyişlə ictimai münasibətlər arasında olan tərs mütənasiblik və uyğunsuzluq idi. Bunların sırasında 1973-cü ilin neft böhranı ilə ortaya çıxan məsələlər kifayət qədər əsas rol oynamışdır. Belə ki, neftin qiymətinin dünya bazarında qalxması İranın da gəlirlərinin artmasını şərtləndirirdi bu da, nəticə etibarilə, xalqın yaşayış səviyyəsinin yüksəlməsini əsaslandırmalı idi. İlk vaxtlar bu bir qədər hiss olunurdu. Həmin dövr OPEK-in qiymətləri qaldırması ilə İranda

adambaşına düşən gəlir 180 dollar idisə, 1974-cü ildə bu rəqəm 810 dollar, 1975-ci ildə isə 1521 dollar təşkil etmişdir (9,362-363). 1971-ci ildə neftin bir barrelinin qiyməti 1.79 dollar, 1973-cü ilin sonunda 11.65 dollara qalxmışdı. Müvafiq olaraq isə, İranın gəliri də 1972-ci ildə 2.3 milyard dollardan 1974-cü ildə 18.5 milyarda, 1977-ci ildə 20 milyarda çatmışdı (8,103).

Lakin ölkəyə gələn gəlirin nəzarətsiz inkişafı və ölkə iqtisadiyyatı ilə bağlı sahələrin inkişafına ayrılmış məsrəflərin nizamlanmamış şəkildə aparılması, nəticədə tam təzadlara, tərs mütənasibliyə gətitrib çıxarmış, cəmiyyətdəki balansın pozulmasına imkan yaratmışdır. Bu isə cəmiyyətdəki təbəqələr arasında qarşıdurmanı əsaslandırmış oldu. Digər tərəfdən isə, hökumət real irəliləyiş şəraitində xalqa verdiyi vədləri həyata keçirmədiyindən ölkədə ciddi etiraz səsləri eşidilməyə başlanmışdı. Bunu hökumətin sosial-iqtisadi siyasətindəki büdcə-maliyyə ayrılmaları da təsdiq edir. Belə ki, 1973-cü ildən 1978-ci ilə qədər iqtisadi, sosial və ictimai məsələrə 30 milyard dollar vəsait sərf olunmuşdusa, təkcə 1977-ci ildə hərbi məqsədlərə ayrılmış vəsait 9.4 milyard təşkil etmişdir (8,104). Belə ki, neftdən əldə olunmuş gəlirin qeyri-proporsional bölünməsi, tək iqtisadi və sosial sahədə deyil, ümumiyyətlə, cəmiyyətdə disproporsiyaya gətirib çıxarmışdı. Nəticədə, varlılar daha da varlanmış, yoxsullar daha da yoxsullaşmış, orta təbəqə isə faktiki olaraq bütün ağırlığı öz üzərində aparmaq iqtidarında deyildi.

Cəmiyyətdəki belə bir vəziyyət şəraitində, burada işləyən və yaşayan xarici ölkə vətəndaşlarının daha da yüksək səviyyədə yaşaması, təbii ki, yerli əhali tərəfindən sakit qarşılana bilməzdi. Belə ki, bu faktor, İranın xaricilərin tam nəzarəti altına keçməsi fikrini ortaya atmaqla bərabər, onlara qarşı mübarizənin də səbəbini əsaslandırırdı. Bu mənada, iqtisadiyyatın müxtəlif sahələrində çalışan ingilis, fransız, alman, filippinli, koreyalı və amerikalı xarici vətəndaşlar, getdikcə dərinləşməkdə olan bu ziddiyyətdən narahatlıqlarını hələ 1976-cı ildə bildirməyə başlamışdı.

İran inqilabını əsaslandıran şərtlər içində təbii ki, siyasi motivlərin olması da qaçılmaz fakt idi. Burada qeyd olunacaq faktorlardan biri də dini dəstəkləyən, ölkənin dini qanunlar əsasında idarə edilməsində israrlı olanların, İranda Qərb üsul-idarəsinin qurulması və inkişaf etdirilməsinə qarşı olan qüvvələrin mövcudluğudur. Bu faktorun özünün mövcudluğu Şah rejiminin mahiyyətinə, xarakterinə, onun yeritdiyi daxili və xarici siyasətə qarşı olmasını, daha bir müxalif qüvvənin mövcud quruluşa qarşı mübarizəsini səciyyələndirirdi. Belə bir hal ilə isə Şah rejimi barışa bilməzdi.

1978-1979-cu illər İran inqilabının baş verməsində dolayısı yolla ABŞ-İran münasibətlərinin bir xətt üzərində qurulması da rol oynamışdır desək səhv etmərik. Əslində bunu rəsmən Vaşinqtonda başa düşür və İranda Qərb dəyərlərinə uyğun islahatların aparılmasının vacib olduğunu qeyd edirdilər. İnqilab ərəfəsində ABŞ rəsmilərinin İrana səfərlərində bu məsələyə toxunmaları da fikrimizi əsaslandırmağa əsas verir. İranda isə, ümumiyyətlə, islahatların keçirilməsinin vacibliyi, hələ 60-cı illərin əvvəllərindən gündəmə

gəlmişdi. Əslində bu islahatların aparılmasının vacibliyini fars millətçiləri ortaya atmışdı. İdeoloji sahədə özünü göstərən bu fəallıq özünün məntiqi nəticəsini 1975-ci ilin martında bütün partiyaların buraxılaraq, vahid kütləvi siyasi təşkilatın - «İranın Dirçəlişi» partiyasının yaradılmasında öz əksini tapdı. Şahın partiyalar haqqında verdiyi qanun da cəmiyyətdə kifayət qədər etirazla qarşılandı. Bu isə qadağan olunmuş siyasi partiyaların fəaliyyətlərini dayandırmasına deyil, əksinə onların daha ciddi, məqsədyönlü fəaliyyətə keçməsini, həmin siyasi partiya və qurumların birləşməsini, cəmiyyətdəki digər siyasi qurum, toplum və birliklərin qüvvələrinin konsolidasiyasını şərtləndirdi. İqtisadi yüksəlişlə siyasi istiqamətin arasındakı uyğunsuzluqdan doğan bu amil isə İranda yeni bir sistemin formalaşdırılmasını qaçılmaz edirdi.

Yeni partiyanın şüarında konstitusiyanın irəli sürülməsi, Qərblə, o cümlədən ABŞ ilə münasibətlərə yeni təkan vermək məqsədinin güdülməsi, əvvəlki siyasi kursun davam etdiriləcəyinə əsas versə də, ölkə bütünlüklə demokratik islahatlara ehtiyac duyurdu. Əvvəl sürülən şüardakı «Allah» sözünün, yeni şüarda özünə yer tapmaması dini qüvvələrin narazılığına səbəb oldu. İnqilabın baş vermə səbəbləri müxtəlif faktorlarla izah edilsə də, bu inqilabın əvvəldən İslam inqilabı kimi baş verəcəyini heç kəs söyləmirdi və əslində dini qüvvələrin son anda ön plana çıxacağını da heç kəs proqnozlaşdırmırdı. Belə bir vəziyyət, ABŞ-ın bir sıra rəsmi dairələrində şahın bu anarxiyasının qarşısını alacağı ehtimalında dayanmağa əsas verirdi.

Ölkədə aparılan modernləşmə siyasətinin məntiqi nəticəsi kimi yeni təbəqə formalaşırdı. Lakin yeni formalaşan təbəqənin ideoloji əsasları, heç də mövcud ideoloji əsaslara uyğun gəlmirdi və faktiki olaraq, recim bu amilin çözülməsi istiqamətində hər hansı bir addım atmaq haqqında düşünmürdü. Nəticə etibarilə, iqtisadi gücün Şahın əlində, siyasi gücün isə kütlənin əlində cəmləşməsi prosesi təkamül etməkdə idi. Daha bir faktor isə 67 illik konstitusiya şəraitində keçirilən seçkilərin şəffaf olmaması, xalqın iradəsinin nəzərə alınmaması idi. Bu seçkilər rejimin tam təzyiqi və nəzarəti altında keçirilməklə, sistemin saxlanmasına xidmət etmişdir (10,78).

İrandakı islam inqilabının baş verməsində daxili səbəblərlə yanaşı, xarici səbəblər də mövcud idi. Məlum olduğu kimi, İran həmin dövr ABŞ-ın regionda ən yaxın və strateci müttəfiqi idi və bununla yanaşı, Amerika Birləşmiş Ştatları bu ölkəyə çoxlu miqdarda silah satmışdı. Bundan əsas məqsəd Sovet İttifaqından gələn təhlükənin qarşısını almaq və Fars körfəzində İranın dominant rolunu təmin etmək idi (7,37). Göründüyü kimi, neftlə zəngin və SSRİ ilə sərhəddə yerləşən İranın ABŞ üçün nə qədər böyük strateci əhəmiyyət daşıdığının əlavə şərhə ehtiyacı qalmır. ABŞ prezidenti Niksonun 1972-ci ildə İrana atom silahından başqa istənilən silah növünün satılmasının mümkün olduğunu söyləməsi də əslində bu məqsəddən irəli gəlirdi. 1970-ci illərdə İranın illik hərbi xərcləri 8-10 milyard civarında olmuşdu. Şah hökuməti İranda hərbi sənaye yaratmaq məqsədilə böyük vəsait də ayırmışdı. 1974-cü ildən sonra silahlanmaya ayrılan məbləğin səviyyəsinə görə İran dünyada 7-ci

yerə çıxaraq, hərbi qüdrət cəhətdən dünyanın 10 ən güclü dövləti sırasına daxil olmuş, Yaxın və Orta Şərq ölkələri içərisində isə qoşunun sayı cəhətdən birinci yerə çıxmışdı (1,27).

1973-cü ildə neft qiymətlərinin həddən artıq artması, Şahın silah almaq imkanlarını da kifayət qədər artırmasına şərait yaratmış oldu. Bunun nəticəsi idi ki, 1977-ci ildə İran ABŞ-dan 6 milyard dollarlıq silah almaqla yanaşı, daha 12 milyard dollarlıq silah da sifariş vermişdi. İki dövlət arasındakı münasibətlərin belə bir səviyyəsi, faktiki İranı regionda candarm dövlətə çevirməyi səciyyələndirirdi ki, bu da region dövlətlərinin maraqlarına uyğun deyildi.

Bununla belə, Şah rejiminin belə güclü şəkildə silahlanması həm xarici, həm də daxili məqsədlərdən irəli gəlirdi. Əgər bu xarici siyasətdə regionda ən güclü dövlət rolunu oynamaq niyyətindən və ABŞ-ın Fars Körfəzi regionunda aparıcı strateci müttəfiqi rolundan irəli gəlirdisə, daxili siyasətdə, Şah rejimi bu silahlanmadan ona müxalif olan qüvvələrin hər hansı çıxışını yatırmaq məqsədini güdürdü.

İranın hərbi qüvvələrinin sayının 400 min olduğu qeyd edilir. ABŞ-dan dəvət olunmuş hərbi mütəxəssislərin sayı isə 40 minə çatırdı, bununla yanaşı isə, hərbi mütəxəssislərə geniş səlahiyyətlər verilmişdi. Amerika hərbi mütəxəssislərinin ixtiyarında olan 7 elektron pusqu məntəqəsi SSRİ, İraq və Əfqanıstan üzərində kəşfiyyat xarakterli nəzarətin aparılmasına imkan verirdi (1,27-28).

Şah rejiminin daxili müxalifətə, separatçı qüvvələrə qarşı mübarizə və siyasətindən danışdıqda, bu rejimi dəstəkləyən qüvvələri qeyd etməmək mümkün deyil, lakin onlar geniş sosial kütlələri əhatə etmirdi. Bu qüvvələr, ilk növbədə, xalqın aşağı təbəqəsindən çıxmış və sonradan rejimin idarə olunmasında yüksək dövlət vəzifələrinə çatmış məmurlar ordusu və ordu mənsubları, eləcə də daxili asayişi bərpa və qoruyan qüvvələr idi. Bü qüvvələr Məhəmməd Rza şahın devrilməsinə qədər onu dəstəklədilər və durumun son dərəcə qaçılmaz olduğunu, Şah rejiminin artıq sona çatdığını gördükdə monarxiyanı dəstəkləməyin artıq mənasız olduğunu dərk edib mübarizədən qaçdılar.

Monarxiyanı dəstəkləyən qüvvələr sırasında ticarət və sənaye burjuaziyasının nümayəndələri idi ki, bü qüvvələr faktiki olaraq siyasi mübarizədə recimdən çox öz kapitallarının qorunmasında daha maraqlı idilər. İnqilab ərəfəsində bu qüvvələrin İrandakı bank hesablarından külli miqdarda kapitalın Avropa və ABŞ banklarına köçürülməsi də bunu təsdiqləyən faktorlar sırasındadır. Bu qüvvələrin öz siyasi partiyaları olsa da, bu partiiyanın üzvləri heç də geniş xalq kütlələrini əhatə etmirdi və bu partiyaların fəaliyyət dairəsi sosial bazanın kifayət qədər zəif olmasından dolayı, məhdud və bəsit idi. Çevriliş zamanı istər bu partiyaların sahiblərinin, istərsə də onların üzvlərinin kütləvi şəkildə ölkədən getmələri də bunu təsdiq edir.

Digər monarxiya tərəfdarları isə Şahın torpaq islahatından kifayət qədər sosial vəziyyətini yaxşılaşdırmış fermerlər idi. Lakin bu qrupun istənilən

dərəcədə təsir gücü olmadığından nə Şah özü, nə də, ümumiyyətlə, rejim onları mübarizəyə qoşmaqda maraqlı deyildi. Çünki islahatların keçirilməsinə baxmayaraq, ondan çox adam yararlana bilmədiyindən, bu qrupa daxil olanlar azlıq təşkil edirdi. Onlar Şah rejimini dəstəkləməyə cəlb etmək qeyri-mümkün olmuşdur ki, bunun da səbəbi bu qüvvələrin kifayət qədər dindar olmaları idi. Bu qrup Rza şahın ABŞ-la yaxınlığına qərəzli yanaşırdılar. Terror və təqib siyasəti yeridən SAVAK təşkilatı 1957-ci ildə ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin köməyi və rəhbərliyi altında yaradılmışdı. Birləşmiş Ştatların yalnız SAVAK-la deyil, nizami ordu ilə sıx əlaqələri mövcud idi. Amerikanın İranla təhlükəsizlik məsələlərinə tənqidi mövqedən yanaşanlar Vaşinqtonu İranı polis recimli bir ölkəyə çevirməkdə və neftdən gələn məhdud sərvətdən zəruri olmayan silahların alınması  üçün şahı böyük məbləğdə xərcləməyə məcbur etməkdə ittiham edirlər. Şahın İranı modernləşdirməsi siyasəti, əsasən mərkəz statuslu şəhər və qəsəbələri əhatə etsə də, kəndləri öz əhatə dairəsinə ala bilməmişdi və kənd camaatı, faktiki olaraq, əsrlər boyu formalaşmış dini dünyagörüşündən çıxış edirdi. Məhz bunun nəticəsi idi ki, «onlar çevriliş edən qüvvələr tərəfindən asanlıqla inqilabi hərəkata cəlb edildilər» (11,13).

1979-cu ilin əvvəlində fiziki və mənəvi cəhətdən sındırılmış şah Məhəmməd Pəhləvi  İranı tərk etdi, fevralın 1-də ayətulla Xomeyni Tehrana qayıtdı. Şahın güvəndiyi bürokratik yuxarı təbəqələr və ordu rəhbərliyi, Amerika hakim dairələri ilə sıx əlaqə saxlayan az miqdarda, lakin maliyyə və siyasi cəhətdən son dərəcə nüfuzlu komprador burjuaziya istisna olmaqla, çoxukladlı İran cəmiyyətinin bütün təbəqələri bu inqilabda iştirak etdilər. İran inqilabı ölkədə qüvvələr nisbətini tamamilə pozdu. 4 noyabr 1979-cu ildə özlərini «imamın xəttinin ardıcılları» adlandıran tələbələr Tehranda Amerika səfirliyinin binasını tutdular və 52 nəfəri girov götürdülər. Əslində bu hərəkət beynəlxalq normaların pozulması demək idi. Keçid kabinetinin başçısı Bazarqan girovların tutulmasını tənqid etdi, iki gün keçmiş isə ABŞ prezidentinin müşaviri Z.Bzecinski ilə gizli danışıqlar apardı. Görüş haqqında məlumat tez bir zamanda mətbuata çıxdı və hökumət bütün tərkibi ilə istefaya çıxmaq zorunda qaldı (3,159). ABŞ-ın yalnız rejimin dayağı olan şaha ümid bəsləməsinin heç də məqsədəuyğun olmadığını üzə çıxardı (12,102).

1979-cu ilin martında İran və Pakistan SENTO paktından çıxdılar, Türkiyə hökuməti isə paktın fəaliyyətinin dayandırlması təşəbbüsü ilə çıxış etdi. (4,123) Vaşinqton isə  inqilabın qarşısını almaqda və şah rejiminin qorunmasında SENTO blokundan istifadə edə bilmədi. Beləliklə, SENTO blokunun fəaliyyətinə son qoyuldu. İran inqilabı soyuq müharibə gedişində, Vyetnam müharibəsindən sonra beynəlxalq münasibətlərdə ABŞ-ın imicinə zərbə vuran ən böyük hadisə idi.

İslam inqilabından nəinki İran, bütün dünya titrədi. «Bütün sənaye dünyasını bürümüş təşviş dalğası barrelin qiymətini 13 dollardan 34 dollara qaldırmaqla, təkcə dünya neft sənayesində deyil, on il ərzində dünya iqtisadiyyatı və geopolitikasında da köklü dəyişikliklərə gətirib çıxardı (5,246). İslam

inqilabından sonra Xomeyni ABŞ-la isti münasibətdə olan ölkələrlə, o cümlədən Misirlə də münasibətləri pozmuşdu. Bu münasibətlər Məhəmməd Hatəminin İranda hakimiyyətə gəlməsi ilə tədricən məcrasına düşməyə başladı (6,47).

İslam inqilabından sonra İranda şah rejiminin devrilməsi və İraqda rəhbərliyin dəyişməsi İranla-İraq arasında münasibətlərin dərhal pisləşməsinə səbəb yaratdı. Bağdad hökuməti İran İslam inqilabından sonra 1980-ci ilin yazında 20 000 şiəni İraqdan qovmuşdur (2 ,97). Qeyd edək ki, belə bir hal ABŞ üçün istənilən vəziyyət idi. 1980-ci il İran-İraq müharibəsinin baş verməsində Vaşinqtonun səyləri az olmamışdır.

İnqilabın qələbə çalmasından sonra yeni siyasi qüvvənin hakimiyyətdə qala bilməyəcəyi ehtimalı özünə daha çox yer alsa da, inqilabdan sonrakı iki il ərzində Vaşinqton-Tehranla yeni münasibətlərin ortaq məxrəcinin müəyyən edilməsi istiqamətində fəaliyyəti dayandırmamışdır. Vaşinqton ABŞ-İran münasibətlərinin normallaşması üçün məqsədyonlü addımlar atırdı.

Bu siyasi kursda İran-İraq müharibəsi zamanı gizli yolla İrana silah satışı variantından da istifadə edilməsi məqsədəuyğün hesab edilmişdir. Əslində sözügedən müharibə zamanı ABŞ-ın İrana gizli yardımı, onun regionda İrana daha çox önəm verdiyini və ABŞ-ın əvvəlki strateci kursa sadiq qaldığının təzahürü idi. Lakin ABŞ-ın gözlədiyinin əksinə olaraq, yeni siyasi qüvvə hakimiyyətdə qaldı. ABŞ-ın bu addımı beynəlxalq münasibətlərdə necə qarşılanacağına deyil, konkret olaraq iki ölkə arasındakı münasibətlərin normal məcraya qaytarılmasına, eyni zamanda, ABŞ-ın regionda mövqeyinin möhkəmlənməsinə hesablanmışdı.

Beləliklə, yüz illik mübarizədən sonra İran yalançı müstəqillikdən öz həqiqi tarixi məcrasına döndü. İran nə Amerika, nə Rusiya və nə də Qərbi Avropanın diktəsi ilə deyil, ilk dəfə öz yolunu müəyyən edən, həqiqi müstəqil ölkəyə çevrildi.

## ƏDƏBİYYAT


1. Abdullayev Z. 1978-1979-cu illər İran inqilabının ilkin şərtləri haqqında. Yaxın və Orta Şərq ölkələrində milli azadlıq hərəkatı. Bakı: BDU, 1983, 7 s.
2. Mustafa Kayar. Türk Amerikan ilişkilerinde İrak Sorunu. İstanbul: Cağaloğlu, 2003. 480 s.
3. Павлов Д. Иран. От полуколонии к региональному лидерству. Ближний Восток: война и политика. М.: Издательский дом Марджани, 2010, 288 с.
4. Борисов Р.В. США: Ближневосточная политика в 70-е годы. М.: Наука, 1982, 216 с.
5. Мартынова Л. Нефть и политика. Арабские княжества Персидского залива. Ближний Восток: война и политика. М.: Издательский дом Марджани, 2010, 288 с.
6. Тертычный Н. Египетско-иранские отношения: путь проложен, но до нормализации еще далеко. М.: Компас, № 49, 2.12.99.
7. Ann Schulz. Iran:Descanting Monarchy. Current History, Vol.76, No.443, January, 1979.
8. John W. Limbert. İran at War with History (Boulder.Colo: Weztview Press,1987
9. Norris S.Hattинэton. İndustralization and revolution in İran: Forced Progress or Unmet Expectation The Middle East, Journal, Vol 36, 3, Summer 1982.
10. Nacser Momayezi. Economic Correlates of Political Violence:The Middle East Journal Vol.40.No,1,Winter 1986.

11. Richard Cotton. «Revolutionary İran» Current History, Vol.78, No. 453, Yanuary 1980
12. Super Zade. The İranian Military in revolution and war. New York, 1988

## 1978-1979 гг. ИРАНСКАЯ ИСЛАМСКАЯ РЕВОЛЮЦИЯ И США

Г.И.КАРАЕВА

### РЕЗЮМЕ

Возникновении Исламской революции в Персии сыграли по мимо внутренних также и внешние факторы. В этот период Иран в этом регионе являлся самым близким стратегическим союзником США. Помимо этого США в большом количестве продала этой стране оружие. Главной целью этого поступка являлось предотвратить опасность, которую чувствовала США от Советского Союза, так же в Персидском заливе обеспечить доминирующую роль Ирана. Жившие и работающие в Иране иностранные граждане, в особенности граждане США вели зажиточный образ жизни, естественно это не могло восприниматься местными жителями спокойно. Именно по этим причинам борьба Исламской революции была направлена против США. В начале 1979 года под воздействием революции шах Мухаммед Пахлавы был вынужден покинуть Иран, а 1 февраля Аятолла Хомейни вернулся в Тегеран. После Исламской революции борьба против США продолжилась. 4 ноября 1979 году студенты назвавшие себя "последователи имамской линии" захватили в Тегеране здание Американского посольства и 52 человека было взято в заложники.

**Ключевые слова:** Исламская революция, студент,Соединенные Штаты, человек

## 1978-1979 YEARS ISLAMIC REVOLUTION IN PERSIA AND THE USA

G. I. GARAYEVA

### SUMMARY

Emergence of the Islamic Revolution in Persia was invoked by both internal, and external factors. During this period, Persia was the closest strategic ally of the United States in this region. In addition, the U.S. sold a large number of weapons to this country. The main purpose of this act was to prevent the danger that the U.S. felt from the Soviet Union, and to ensure the dominant role of Persia in the Persian Gulf. Foreign citizens living and working in Persia, especially the citizens of the United States, led wealthy lifestyles, which could not be perceived calmly by the local people. For these reasons, the struggle of the Islamic Revolution was directed against the United States. In early 1979, under the influence of the revolution, Shah Mohammed Pahlavi was forced to leave Persia and on February 1, Ayatollah Khomeini returned to Tehran. After the Islamic revolution, the struggle against the U.S. still continued. On November 4, 1979 students who identified themselves as "followers of Imam’s line" in Tehran seized the building of the American embassy and 52 people were taken hostages.

**Key words:** Islamic Revolution, student, United States, people